# Dünya Azərbaycanın yaratdığı yeni reallıqları təqdir edir

***Dövlət başçımızın 2022-ci ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədəki nitqini oxuyanda gəldiyim ilk qənaət bu oldu: “Hər şey göz qabağındadır”. Elə dövlət başçımızın özü də bu qənaəti postmünaqişə dövrü reallıqlarını xatırladarkən bildirdi.***



Cənab Prezident 2020-ci il noyabrın 10-dan sonra imza atdığımız layihələri sadaladıqca həmin il dekabrın 10-da Bakıda keçirilmiş Zəfər Paradının tribunası gözüm önündə canlanırdı. Çünki qardaş Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan tribunadan demişdi: “Azərbaycanın torpaqlarını işğaldan azad etməsi heç də mübarizənin başa çatması demək deyildir. Bu günə qədər siyasi və hərbi sahələrdə davam etdirilən mübarizə bundan sonra çox fərqli cəbhələrdə davam edəcəkdir. Otuz illik işğal müddətində bu bölgələrin viranəyə çevrildiyini, daş üstündə daş qalmadığını hamımız birlikdə gördük. Qardaşım İlham Əliyevin dediyi kimi, Füzuli şəhərində bayraq asmağa belə bina tapılmamışdır. Bütün şəhərlər tarmar edilmiş, bütün kəndlər yerlə-yeksan olunmuş, məzarlıqlar belə dağıdılmışdır. Məscidlər dağıdılmış, minarələr eynilə tarmar olmuşdur”.

Fakt göz qabağındadır. Ermənistanın kapitulyasiya aktını imzalamasından sonra bizim mübarizəmiz həqiqətən çox fərqli cəbhələrdə davam etməkdədir. Biz il yarım əvvələ qədər deyirdik ki, Ermənistan istisna olmaqla bütün ölkələrlə münasibətlərimizin yüksələn xətlə inkişaf etdirilməsinə nail oluruq. İndi isə xatırladırıq ki, postmünaqişə dövrü reallıqlarının hamı tərəfindən qəbul edilməsi üçün dünyanın bütün paytaxtları (yəni İrəvan da daxil olmaqla) və beynəlxalq təşkilatlarla apardığımız prinsipial işlər öz nəticəsini verməkdədir. Dövlət başçımız son günlər bir neçə dəfə xatırladıb ki, İrəvandan bizim təkliflərimizə müsbət fikirlər gəlməkdədir.

*(ardı 4-cü səhifədə)*

***Postmünaqişə dövrünün birinci ilinin nəticələri deməyə əsas verir ki, qarşımızda duran bütün vəzifələr icra edilmişdir. Biz, ilk növbədə, beynəlxalq təşkilatlarla öz təmaslarımızı, fəal əməkdaşlığımızı davam etdirmişik və dünyanın aparıcı beynəlxalq təşkilatları yeni reallıqları qəbul etmişlər. İlk növbədə, BMT xətti ilə Şuşa şəhərində bu yaxınlarda beynəlxalq tədbir keçirilmişdir.***

***(Azərbaycan Prezidenti İlham Əliyevin bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədəki nitqindən)***



# Dünya Azərbaycanın yaratdığı yeni reallıqları təqdir edir

(əvvəli 1-ci səhifədə)

## BMT-nin üzərindəki yükü özümüz götürdük

Həyata keçirilən tədbirlər barədə danışan dövlət başçımız ilk növbədə, BMT xətti ilə Şuşa şəhərində bu yaxınlarda keçirilmiş beynəlxalq tədbiri xatırlatdı. Qeyd etdi ki, bu, çox əlamətdar hadisə idi. Bu, bir daha onu göstərdi ki, BMT Azərbaycanın ərazi bütövlüyünü tanıyan qurumdur: "Əlbəttə ki, biz BMT-yə üzv olandan sonra işğalla üzləşdiyimiz dövrdə gördük ki, BMT, onun Təhlükəsizlik Şurası ədalətli qərarlar qəbul etmişlər. Əfsuslar olsun ki, bu qərarlar 30 ilə yaxın bir müddətdə kağız üzərində qalmışdır. Ancaq Qarabağ münaqişəsinin həlli, Azərbaycan tərəfindən birtərəfli həlli, eyni zamanda, BMT-nin üzərindən bu yükü götürmüş oldu".

Xatırladaq ki, Şuşa şəhərində keçirilmiş bu tədbirin, xüsusi əhəmiyyəti var idi. Təsadüfi deyil ki, həmin tədbirin əks-sədası təkcə Ermənistanda deyil, dünyanın hər yerindəki ermənilərin qulağında hələ uzun müddət cingildəyəcək. Dövlət başçımızın dediyi kimi, Ermənistanda bu, növbəti isterikaya səbəb olmuşdur.

## Qoşulmama Hərəkatı Azərbaycanla həmrəydir

Hamının yadındadır, Azərbaycan 2011-ci ildə Qoşulmama Hərəkatına üzv olanda bəzi "siyasətçilər" dodaq büzmüşdülər ki, o boyda Qarabağ problemimiz olduğu halda, bu qurum bizim nəyimizə lazımdır? Anlamadılar və anlaya bilməzdilər ki, 44 günlük İkinci Qarabağ müharibəsi gedən günlərdə bəzi bədxahlarımız bizim əleyhimizə qətnamə qəbul etdirmək istəyəndə, məhz Qoşulmama Hərəkatının üzvü olan ölkələr həmin sənədin qarşısının alınmasına nail olmuşdular.

Xatırladaq ki, Qoşulmama Hərəkatına hazırda Azərbaycan sədrlik edir və məlum olduğu kimi, bütün üzv dövlətlərin razılığı və dəstəyi ilə bizim sədrliyimiz bir il daha da uzadıldı. Bu, Azərbaycan Prezidentinə olan böyük etimadın təzahürüdür.

Dövlət başçımız müşavirədə xatırlatdı ki, Qoşulmama Hərəkatı Azərbaycan bu hərəkata üzv olandan dərhal sonra keçmiş müharibə ilə bağlı ədalətli mövqe nümayiş etdirmişdir: "Hesab edirəm ki, müharibədən sonra bu istiqamətdə əlavə önəmli hadisələr baş vermişdir. Birmənalı şəkildə Qoşulmama Hərəkatı həm müharibədən əvvəl, işğal dövründə, həm müharibə dövründə, həm müharibədən sonra Azərbaycanla həmrəy olmuşdur".

## İƏT rəhbərləri işğaldan azad edilmiş torpaqlarımızda

Dövlət başçımız müşavirədə qeyd etdi ki, İslam Əməkdaşlıq Təşkilatı işğal dövründə dəfələrlə ədalətli, bizim mövqeyimizi əks etdirən qərar-qətnamələr qəbul etmişdir: "Bu yaxınlarda İslam Əməkdaşlıq Təşkilatının xarici işlər nazirləri səviyyəsindəki toplantıda bir daha bir neçə qətnamə – Azərbaycan mövqeyini dəstəkləyən, o cümlədən Azərbaycanın tarixi-dini abidələrinin ermənilər tərəfindən dağıdılmasına dair önəmli qərar-qətnamələr qəbul etmişdir və təşkilatın rəhbərliyi azad edilmiş torpaqlara səfərlər etmişdir".

Cənab Rəcəb Tayyib Ərdoğanın Bakıda olarkən dediyi kimi, ermənilər tərəfindən bütün şəhərlər tarmar edilmiş, bütün kəndlər yerlə-yeksan olunmuş, məzarlıqlar belə dağıdılmışdır: "Ermənilər hər şeyi məhv etdikləri kimi, tarixi və mədəni abidələri də, təbii sərvətləri də qarət etdilər. Bütün bu ziyanın hesabı sorulmalıdır". Soruşulacaq. Mütləq bu vəhşiliklərə görə cavab verəcəklər.

## Reallıqları ATƏT də qəbul edir

Bu qurum Avropada təhlükəsizliyin və əməkdaşlığın qorunması üçün yaradılmışdı. Təəssüf ki, geridə qalan illərdə həm ATƏT-in özü, həm də onun Cənubi Qafqazda sülh yaratmaq məqsədi ilə formalaşdırdığı Minsk Qrupu, sözün həqiqi mənasında, öz missiyaslarını yerinə yetirə bilmədilər. Bu qənaəti onların təkcə Ermənistan – Azərbaycan münaqişəsindəki qətiyyətsizliyinə görə qeyd etmirik. ATƏT köhnə qitədəki təzə münaqişələrdə də işə yaramadı.

Ancaq, hər halda, bizim yaratdığımız yeni reallıqları tam qəbul etdi.

Dövlət başçımız aprelin 12-də qeyd etdi ki, bu yaxınlarda ATƏT-in fəaliyyətdə olan sədri ilə mənim görüşüm olub və görüş bir daha onu göstərdi ki, ATƏT də yeni reallıqları qəbul edir və bu da çox əlamətdar hadisədir: "ATƏT-in Minsk Qrupuna gəldikdə, müharibədən dərhal sonra Minsk qrupunun həmsədrləri Bakıya gəlmişdilər. Bu, onların Azərbaycana müharibədən sonra birinci və sonuncu səfəri idi … Biz bu münaqişəni özümüz həll etdik. Minsk qrupu İkinci Qarabağ müharibəsinə qədər 28 il fəaliyyətdə idi və həmsədr ölkələr bu illər ərzində Azərbaycana, Ermənistana bəlkə də yüzlərlə səfər etmişlər. Nəticə də göz qabağındadır, nəticə sıfır". Ancaq dövlət başçımızın fikrincə, ATƏT bir beynəlxalq təşkilat kimi bundan sonrakı proseslərdə öz rolunu oynaya bilər.

## Avropa İttifaqı yeni reallıqlarla razılaşır

Təkcə indi deyil, ümumiyyətlə, son beş-altı ildə bizim Avropa İttifaqı ilə əməkdaşlığımız müsbət məcrada inkişaf etmişdir. 44 günlük müharibədən sonra isə bu əməkdaşlıq daha intensiv xarakter almışdır. Fakt ondan ibarətdir ki, Avropa İttifaqı da postmüharibə dövrünün reallıqlarını qəbul etmişdir. Avropa İttifaqı Şurasının prezidenti cənab Şarl Mişelin təşəbbüsü ilə ötən ilin dekabr və bu ilin aprel aylarında üçtərəfli görüşlər keçirilmişdir.

Bu barədə söz açan dövlət başçımız xatırladır ki, yekun kommunikedə "Dağlıq Qarabağ" ifadəsi yoxdur, bu da təbiidir. Çünki Azərbaycan buna etiraz etmişdir və "münaqişə" sözü də yoxdur. Bu da təbiidir, çünki münaqişə yoxdur. Münaqişə həll olunub: "İndi isə Avropa İttifaqı Azərbaycan–Ermənistan əlaqələrinin normallaşması ilə məşğuldur və son aprel görüşündə - 6 aprel tarixində keçirilmiş görüşdə bu məsələlər müzakirə edilmişdir. Bildiyiniz kimi, Azərbaycan iki ölkə arasındakı əlaqələri normallaşdırmaq üçün 5 prinsipdən ibarət təklif vermişdir və Ermənistan tərəfi də bu təkliflə müsbət yanaşmışdır və Brüssel görüşünə qədər artıq bu açıqlamalar verilmişdir".

Təbii ki, müşavirədə səslendirilmiş bütün fakt, rəqəm və arqumentlər bizim yeni dövrə daha qətiyyətli addımlarla getdiyimizi sübut edir. Ancaq bu sətirlərə cənab Prezidentin daha nikbin əhval-ruhiyyə yaradan ifadəsi ilə yekun vurmaq istəyirik: "Gələcəyə baxdıqda, mən tam əminəm ki, Azərbaycan daha da güclənəcək".

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***